**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**HİKMƏT BABA OĞLU MƏMMƏDOV**

# AZƏRBAYCAN RESPUBLİKASI MÜASİR BEYNƏLXALQ SİYASİ PROSESLƏRİN AKTORU KİMİ

**İxtisas: 23.00.02 – «Siyasi institutlar, etnosiyasi konfliktologiya, milli və siyasi proseslər»**

**Siyasi elmlər doktoru
alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2013**

İş Bakı Dövlət Universitetinin “Politologiya və Sosiologiya” kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** tarix elmləri doktoru, professor **M.C.Qasımlı**

**Rəsmi opponentlər:** fəlsəfə elmləri doktoru, professor **Ə.M.Tağıyev**

siyasi elmlər doktoru, professor **V.İ.Abdullayev**

siyasi elmlər doktoru **H.M.Rəcəbli**

**Aparıcı təşkilat:** AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Politologiya və siyasi sosiologiya" şöbəsi

Müdafiə "_28___" __03_ 2013-cü il saat _____ -da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki B/D 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1001, Bakı şəhəri, Lermontov küçəsi, 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" __________ 2013-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru,**
**dosent:** **S.İ.Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Müasir beynəlxalq siyasi proseslər dinamikliyi, çoxtərəfliliyi və mürəkkəbliyi ilə fərqlənir. Qlobal qarşılıqlı əlaqələr sisteminin yaranmasını şərtləndirən belə şəraitdə bu proseslərin tədqiqi problematikası da mürəkkəbləşmiş beynəlxalq siyasi münasibətlərin qanunauyğunluqları kontekstində fəallaşır. Bu baxımdan siyasi realizm nəzəriyyəsi və neoliberalların irəli sürdükləri müddəalar xüsusi maraq doğurur. Beynəlxalq münasibətlər sisteminin ümumi qanunauyğunluğu ilk növbədə bu münasibətlərin aktorlarının davranışının sistemin struktur xassələrindən asılılığından ibarətdir. Bu isə postindustrial modernləşmə və müasir qloballaşma proseslərinin obyektiv məntiqinə uyğun olaraq formalaşan beynəlxalq münasibətlər sistemində öz əksini tapır. Məhz elə buna görə müasir dövrün qlobal problemlərinin təsiri ilə baş verən dünya siyasi proseslərinin onların yeni keyfiyyət səviyyəsində beynəlxalq münasibətlər sisteminin transformasiyası və qlobal qarşılıqlı əlaqələrin yaranmasının siyasi aspektlərinin dissertasiya səviyyəsində tədqiqi nəzəri və praktiki əhəmiyyət kəsb edir.

Ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, “Qloballaşma və inteqrasiya prosesləri heç də həmişə optimizmin təsdiq olunması ilə müşaiyət olunmur. Bu mürəkkəb və çoxmənalı proseslərin perspektivləri bizim hamımızı dərindən düşünməyə vadar edir”[1]. Bu fikirlər müstəqil Azərbaycan Respublikasının müasir beynəlxalq siyasi münasibətlər sistemində yeri və rolunun müəyyənləşdirilməsinin strateji əsaslarını təşkil edir. Elə bu kontekstdə də tədqiqat mövzusunun aktuallığını aşağıdakı müddəalarda ardıcıllıqla ifadə etmək olar.

1. Beynəlxalq münasibətlər sahəsini araşdıran tədqiqatçılar dünyanın siyasi mənzərəsinin dəyişməsini şərtləndirən amillər üzərində konkret dayanaraq, onların təsiri altında dünya ictimaiyyətinin yeni inkişaf mərhələsinə keçdiyini göstərirlər. Özünəməxsusluğu ilə səciyyələnən həmin amillərin heç biri qəfildən meydana çıxmamışdır. Onların çoxu dünyanın siyasi inkişafının aparıcı amillərindən olub onilliklər ərzində formalaşmışdır. Bütün bunlar qlobollaşmanın ciddi

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 42 cilddə. Cild 29. Bakı, Azərnəşr, 2007. S.196

təsirlərinə məruz qalan müasir beynəlxalq münasibətlər sisteminin təbiəti və xüsusiyyətlərinin araşdırılmasına, eləcə də yaranmış yeni siyasi reallıqların təhlilinə olan elmi və praktiki tələbatı müəyyən edir.

2. Əksər tədqiqatçıların fikrincə, qloballaşma yeni dünya nizamıdır və qloballaşmaya qədər xaos mövcud olmuşdur. Lakin bu zaman kompleks suallar səsləndirmək olar və burada məqsəd bundan əvvəl mövcud olmuş beynəlxalq münasibətlər sisteminin nəzərdən keçirilmsindən ibarətdir. Birincisi, dünyada dövlətçilik institutunun inkişafı və möhkəmlənməsi prosesi davam edirdi. Dövlət institutu nəinki nüfuzunu itirir, əksinə ciddi şəkildə artıtırdı. Dünyada müstəqil dövlətlərin sayı getdikcə çoxalırdı. İkincisi, blok qarşıdurması dövlətlərarası mübahisələrin onların cavabdehlik sərhədləri xaricində güc yolu ilə həlli cəhdlərinin qarşısını alırdı. Bu cür vəziyyət NATO və Varşava Müqaviləsi Təşkilatına üzv olan ölkələrin əhalisinə qeyri-normal "blok" təfəkkürü və azadlıq haqqında öz təsəvvürlərini fədakarcasına müdafiə etmək hazırlığı bahasına başa gəlsə də, üçüncü dünya müharibəsindən qaçmaq mümkün oldu. Üçüncüsü, Birləşmiş Millətlər Təşkilatı, onun tərkibinə daxil olan və olmayan digər müstəqil təşkilatlar beynəlxalq münasibətlər sistemində öz tənzimləyici funksiyalarını uğurla yerinə yetirirdilər. Bütün bunlar da qeyd olunan məsələlərin öyrənilməsi zərurətini ortaya qoyur.

3. Soyuq müharibə sisteminin dağılması ilə beynəlxalq siyasi proseslərin inkişafında ziddiyətlər artaraq kəskin xarakter almağa başladı. Buna Mərkəzi və Şərqi Avropa ölkələrində sosializmin qəflətən çökməsi ciddi təkan verdi. Nəticədə böyük güc vakuumu yarandı və əslində ətalət qanunlarına görə bu təzyiq dünyanı dağıtmalı idi. Ancaq bu tam olaraq belə olmadı. Bütün bunlardan sonra, nə Qarşılıqlı İqtisadi Yardım Şurası, nə Varşava Müqaviləsi Təşkilatı qalmasa da, digər beynəlxalq və regional təşkilatlar öz mövcudluğunu qoruyub saxladı. Sovet İttifaqı ilə ABŞ-ın qarşıdurması aradan qalxdı və yeganə fövqəldövlət dünyanı yeni siyasi kataklizmlərə sürükləməkdə maraqlı kimi görünmədi. Lakin bu sürükləməmək də nisbi idi və bu, müxtəlif prizmalardan nəzərdən keçirilə bilər. Çünki, hazırda dünyada sırf amerikansayağı nizamın bərqərar olunmasına ciddi cəhdlər edilir. Fikrimizcə, bunun özü qeyri-sabitliyə yol açan amil ola bilər. Çünki, bu nizam heç də hamı tərəfindən birmənalı qarşılanmır.

4. Siyasi proses siyasi reallığı əks etdirməklə müxtəlif siyasi qüvvələrin maraqlarının mübarizəsi nəticəsi kimi çıxış edir. Baş verən müasir beynəlxalq siyasi proseslərin fonunda isə xaos təhlükəsinin daha aydın cizgiləri görünür. Bəzən isə hətta bunun qaçılmaz olduğu təsəvvürü yaranır. 2001-ci il 11 sentyabr terror aktlarının təşkilatçıları məhz buna çalışırdılar. Lakin Ümumdünya ticarət mərkəzinin xarabalıqları yerində indi "Azadlıq qülləsi" ucaldılır və dünya beynəlxalq terrorizm, mütəşəkkil transmilli cinayətkarlıq və yaxınlaşan ekoloji fəlakət təhlükələrinə qarşı adekvat cavab tədbirləri axtarır.

5. Müasir beynəlxalq münasibətlər sistemində qlobal qarşılıqlı asılılığın dərinləşdiyi şəraitdə dünya siyasətinin formalaşmasında onun aktorları olan ayrı-ayrı dövlətlərin xarici siyasətinin rolu artır. Qlobal dəyişikliklər vektorunun qeyri-müəyyənliyi bütün dövlət və qeyri-dövlət təşkilatlarının beynəlxalq arenada fəaliyyətlərinin daha səmərəli əlaqələndirilməsini tələb edir. Yeni siyasi reallıqlardan biri kimi dövlətlərlə yanaşı, transmilli korporasiyalar və s. kimi yeni-yeni "aktorların" beynəlxalq arenaya daxil olması bir çox məqamların tamamilə yeni prizmadan nəzərdən keçirilməsini tələb edir. Eyni zamanda SSRİ-nin süqutundan sonra müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının yeni keyfiyyət çalarları qəbul etmiş beynəlxalq münasibətlər sistemində özünün maraqlarından çıxış edən fərqli siyasi mövqeli aktorlarla formalaşdırdığı münasibətləri və qarşılıqlı əlaqələrinin, bu kontekstdə milli maraqlara uyğun reallaşdırdığı balanslaşdırılmış xarici siyasətinin tədqiq edilməsi mühüm nəzəri və praktik əhəmiyyət kəsb edir.

6. Qloballaşma ölkələr arasında sərhədləri daha çox şərti edir. Belə vəziyyət isə Şərqlə Qərb arasında ən səmərəli körpü rolunu oynayan Azərbaycan Respublikasını beynəlxalq ictimaiyyət üçün daha da cəlbedici etmişdir. Müstəqil, demokratik inkişaf yolunda inamla addımlayan Azərbaycan Respublikası da öz növbəsində müasir beynəlxalq münasibətlər sistemindəki zəruri rolundan və yerindən istifadə edərək öz milli maraqlarının səmərəli təmin olunması istiqamətində məqsədyönlü xarici siyasət həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın dünyada gedən proseslərdə fəal iştirakı üçün çevik xarici siyasət həyata keçirməsinə böyük əhəmiyyət verərək qeyd etmişdir: "Bizim diplomatiyamız çevik olmalıdır. Biz bölgədə və dünyada baş verən

proseslərə çox operativ qiymət verməliyik. Azərbaycan artıq dünyada gedən proseslərin fəal iştirakçısıdır. Bir çox hallarda bölgədə və Avropa üçün önəmli tədbirlərin təşəbbüskarıdır. Bölgədə Azərbaycanın mövqeyindən artıq çox şey asılıdır"[2]. Bu istiqamətdə daha səmərəli nəticələrin əldə edilməsi üçün Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki qarşılıqlı münasibətlərinin məntiqinin dərk edilməsi vacibdir. Bu da öz növbəsində, dərin elmi araşdırmaların aparılmasını tələb etməklə tədqiqat mövzusunun aktuallığını bir daha sübut edir.

7. Azərbaycan Respublikasının xarici siyasət strategiyasının mühüm istiqamətlərindən biri də beynəlxalq aləmə hərtərəfli şəkildə inteqrasiya olunmaqdan ibarətdir. Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasında iqtisadi təməl mühüm rol oynamışdır: "İlham Əliyevin prezidentliyinin əsas konsepti güclü iqtisadi bazanın formalaşdırılmasından ibarət idi... Bununla yanaşı, geostrateji və geoiqtisadi məsələlər kompleksini həll etmək, milli artımın sabitliyini və davamlılığını təmin etmək, ölkəni beynəlxalq münasibətlərin obyektinə deyil, subyektinə çevirmək lazım idi, çünki yeni dünya nizamını formalaşdıran ümumdünya transformasiyaları dövründə Azərbaycanın qlobal proseslərdə iştirakının təmin edilməsi son dərəcə zəruridir"[3]. Bu, Azərbaycanın xarici siyasət strategiyasının səmərəliliyini təmin edən mühüm strateji faktorlardan biri kimi çıxış edir. Bu istiqamətdə siyasi, iqtisadi, təhlükəsizlik, mədəni və digər sahələrdə geniş və uğurlu əməkdaşlıq sayəsində mühüm nailiyyətlər əldə edilmişdir. Eyni zamanda, bəhs olunan kontekstdə daha böyük uğurlara nail olmaq üçün Azərbaycan Respublikasının konkret beynəlxalq strukturlarla əməkdaşlığının elmi cəhətdən tədqiq edilməsi əhəmiyyətli və faydalı olar.

Beləliklə, beynəlxalq siyasi proseslərin müasir mərhələsinin səciyyəvi xüsusiyyətlərinin araşdırılması, bu proseslərin aktoru kimi Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində yeri və rolunun, həyata keçirdiyi xarici siyasət fəaliyyətinin nəzəri və

---

[2] Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası. Bakı, Azərnəşr – 2011, 952 s.

[3] Azərbaycan 2020: inkişafın yeni hədəfləri. Bakı, Azərnəşr 2012, 848 s.

praktik cəhətdən dərk olunması, bütövlükdə bu problematikanın siyasi təhlilinin aparılması xüsusi aktuallıq kəsb edir.

**Problemin işlənmə dərəcəsi.** Azərbaycan Respublikasının müasir beynəlxalq siyasi proseslərdə yeri və rolu problematikasının işlənmə səviyyəsini təhlil etməzdən əvvəl irəli sürülən yeni beynəlxalq münasibətlər sisteminin təşəkkülü və yeni dünya nizamının formalaşması problemlərinin müasir siyasi elm çərçivəsində fəal öyrənilməsini qeyd etmək lazımdır. Bu baxımdan hər şeydən öncə beynəlxalq münasibətlər nəzəriyyəsi sahəsi üzrə məktəblərin, baxışların, müddəaların bütün rəngarəngliyi A.D.Boqaturov, K.Bus, F.Moro Defarj, N.A.Kosolopov, Q.N.Novikov, S.Smit, P.A.Tsıqankov, S.Hantinqton, Z.Bzejiniskinin, M.A.Xrustalev, İ.Vallerstayn, R.Robertson və s. kimi xarici müəlliflərin əsərlərində əks olunduğu diqqəti cəlb edir[4].

Müasir beynəlxalq münasibətlər sistemindəki əsas dəyişikliklərin baş verməsi məhz qloballaşmanın təsiri altında meydana gəldiyi iddia edilir. Bu istiqamətdəki qiymətli əsərlər içərisində Z.Baumanın "Qloballaşma: insan və cəmiyyət üçün nəticələri"; U.Bekin "Qloballaşma nədir? Sivilizasiyanın səhfləri-qloballaşmaya cavablar", "Qloballaşma. İnkişaf və yoxsulluq", "Ümumdünya iqtisadiyyatının qurulması"; M.Delyaqinin "Dünya böhranı: qloballaşmanın ümumi nəzəriyyəsi."; Q.Martinin və H.Şumanın "Qərb qloballaşması. Çiçəklənməyə və demokratiyaya hücum" və s. əsərləri qeyd etmək olar. Bu əsərlərdə ümumi şəkildə qloballaşmanın təbiəti və əlamətləri və s.[5]

---

[4] Богатуров А., Косолапов Н., Хрусталев М. Очерки теории и методологии политического анализа международных отношений. М., 2002; Новиков Г. Теория международных отношений. Иркутск, 1996; Цыганков П. Международные отношения социологические подходы. М., 2004; Цыганков П., Дробот Г., Лебедева М.и др. Международные отношения: теории, конфликты, движения, организации. М., 2007, 320 с.

[5] Бауман З. Глобализация: Последствия для человека и общества. М., 2004, 245с.; Делягин М. Мировой кризис: общая теория глобализации. М., 2003; Делягин М. Мировой кризис: общая теория глобализации. М., 2003, 311с.; Мартин Г.П., Шуман Х. Западня глобализации. Атака на процветание и демократию. М., 2001, 198с.; Уткин А.Новый мировой порядок.

tədqiq edilir. Lakin bununla belə adı çəkilən müəlliflərin əsərləri qloballaşmaya daha çox məruz qalmış siyasi cəmiyyətlərin intellektual məhsulu olduğu üçün bəzi hallarda obyektiv mahiyyət daşımır. Xüsusilə qloballaşma və inteqrasiya proseslərinin XX əsrin sonlarında baş verən dalğası Qərbdə dərk edilməsi çətin problem kimi qarşılanır. Azərbaycan Respublikasının beynəlxalq siyasi proseslərə subyekt olaraq qoşulması da elə həmin dövrə təsadüf etdiyi üçün adı çəkilən müəlliflərin əsərləri yeni siyasi reallıqların tam təsviri üçün yetərsiz qalır.

Tanınmış tədqiqatçılar V.N.Daxin və S.A.Proskurin özlərinin "Qloballaşmanın siyasi problemləri" adlı əsərində "qloballaşma fenomeninin və onun konkret siyasi modelinin öyrənilməsi probleminə geniş yer vermişlər.[6] Bununla belə fikrimizcə, həmin əsərdə müasir beynəlxalq siyasi proseslərin tam mənzərəsi yaradılmamış, qloballaşmanın siyasi problemləri bu proseslərin aktorlarının davranışı kontekstində nəzərdən keçirilməmişdir.

Qərb müəlliflərinin də əsərlərində qloballaşma və onun beynəlxalq münasibətlər sisteminə təsir imkanları müxtəlif aspektlərdən tədqiq edilir. Bunlardan S.Amin, İ.Vallerstayn, A.Panarin, F.Utar və s. tədqiqatçıları göstərmək olar.[7] Bu əsərlərdə isə qloballaşma daha çox iqtisadi aspektdən izah edildiyi üçün bəzən siyasi proseslərin mahiyyəti arxa planda qalmış olur.

Azərbaycan Respublikasında da beynəlxalq siyasi münasibətlər və bu münasibətlər sistemində Azərbaycanın yerinə və roluna dair geniş tədqiqat işləri aparılır. Bu sahədəki elmi araşdırmaları beynəlxalq münasibətlər və xarici siyasət sahəsinin konkret istiqamətləri üzrə qruplaşdırmaq olar. Belə ki, R.Mehdiyev, Ə.Həsənov,

---

М., Эксмо, 2006, 637с.; Уткин А. Мир после сентября 2001 года. М., 2002, 253с.

[6] Дахин В., Проскурин С. Политические проблемы глобализации. М., 2003, 231с.; Стиглиц Дж. Глобализация: тревожные тенденции. М., 2003, 112с.; Бузгалина А. Альтерглобализм: теория и практика «антиглобалистского движения». М., 2003;

[7] Валлерстайн И. После либерализма. М., 2003, 129с.; Амин С., Утар Ф. Глобализация сопротивления: борьба в мире. М., 2004; Панарин А. Искушение глобализмом. М., 2000, 241с.; Панарин А.Стратегическая нестабильность в XXI веке. М., 2003, 98с.

H.Hüseynova, N.Axundov, H.Rəcəbli, A.Abbasbəyli, Y.Mahmudov, M.Qasımlı, C.Həsənov, E.Əliyev, H.Məmmədov, M.Abdullayev, A.Hacıyeva, A.Piriyev, M.Əfəndiyev, R.Ağazadə, E.Aslanov, R.İbadov və başqaları öz əsərlərində ümumi şəkildə beynəlxalq münasibətlərin təbiətinə, qanunauyğunluqlarına və inkişaf tendensiyalarına dair konseptual müddəalar ifadə edirlər.[8]

Azərbaycan siyasi elmində beynəlxalq münasibətlər və xarici siyasət sahələrini dərindən və geniş araşdıran tədqiqatçı Ə.Həsənov özünün "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" adlı kitabında beynəlxalq münasibətlərin konseptual əsaslarını, beynəlxalq münasibətlər sisteminin formalaşması və inkişafı problemlərini dərindən təhlil etmiş, Azərbaycanın xarici siyasəti və onun beynəlxalq münasibətlər sisteminə qoşulması prosesini ətraflı araşdırılmışdır. Bundan başqa, Ə.Həsənovun "Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991-1996)" adlı kitabında Azərbaycanın xarici siyasət strategiyasının başlıca prinsipləri, Avropa dövlətləri və ABŞ-la qarşılıqlı münasibətlərinin

---

[8] Mehdiyev R. "Yeni siyasət: inkişafa doğru". I hissə, Bakı, "Oskar" MPM, 2008, 581 s.; Abbasbəyli A. Beynəlxalq münaqişələr: nəzəri və konseptual yanaşmalar. Bakı, Şirvannəşr, 2006, 194s.; Abbasbəyli A. Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, 2007, 206s.; Abdullayev E. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı, Təhsil, 2004. - 216 s.; Abdullayev M. Beynəlxalq münasibətlər tarixi : XX əsr: Bakı, EİM, 2003. - 540 s.; Ağazadə R. Beynəlxalq münasibətlər və Pablic Rileyşnz. Bakı, 2007, 90s.; Əfəndiyev M. Siyasi elmin əsasları. Bakı, Siyasət nəşriyyatı, 2008, 636 s.; Hacıyeva A. Beynəlxalq münasibətlər tarixi (1871-1919-cu illər). Bakı, 2001, 607s.; Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan nəşriyyatı, 2005, 752 s.; Həsənov Ə. Heydər Əliyev və Azərbaycan xarici siyasət prioritetlərinin müəyyənləşməsi. Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. Bakı, s. 571-582.; Həsənov Ə. Azərbaycanın və xarici ölkələrin siyasi sistemləri. Bakı, Azərbaycan nəşriyyatı, 2007, 248 s.; Məmmədov H. "Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu" Bakı, "Aypara-3", 2009, 328 s.; Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi: 2 hissədə. Bakı, 2003, 364 s.; Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemləri. Bakı, 2002, 533s.

xüsusiyyətləri tədqiq edilir. Onun "Müstəqil Azərbaycan dövlətinin xarici siyasəti", "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" və s. əsərləri də Azərbaycan siyasi elminin qeyd edilən sahəsinin inkişafına böyük töhfə vermişdir.[9]

Azərbaycanın ayrı-ayrı dünya dövlətləri və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqə və münasibətlərinin xüsusiyyətlərinin tədqiqinə də geniş yer verilmişdir. Tədqiqatçı H.Hüseynova özünün "Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində" adlı əsərində Azərbaycanın xarici siyasətinin başlıca məqamlarına toxunmaqla yanaşı, Avropa dövlətləri ilə qarşılıqlı əlaqələrin qurulması prinsiplərinin də geniş təhlilini vermişdir.[10] A.Əzimli tərəfindən isə Azərbaycan Respublikası ilə NATO arasındakı siyasi hərbi münasibətlər tədqiq edilmişdir.[11]

Tədqiqatçı E.Məmmədli isə Azərbaycan-Böyük Britaniya münasibətlərinə həsr olunmuş monoqrafiyasında Azərbaycan Respublikasının müasir xarici siyasətinin əsas istiqamətlərindən olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə münasibətləri əhatəli şəkildə tədqiq etmişdir.[12]

Yuxarıda qeyd etdiklərimizlə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesi Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqaməti kimi geniş tədqiq edilmişdir. Bu istiqamətdə Azərbaycanın dünya dövlətləri ilə apardığı danışıqların mahiyyəti, beynəlxalq təşkilatların mövqeləri və s. dərindən təhlil edilmişdir. Belə tədqiqatlar içərisində K.Ruintənin "Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti" adlı monoqrafiyanı qeyd etmək olar. Kitabda Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ

---

[9] Həsənov Ə. Müstəqil Azərbaycan dövlətinin xarici siyasəti. (əsas istiqamətlər, prinsip və xüsusiyyətlər) Heydər Əliyev siyasi məktəbini öyrənirik. Bakı, 1997, s.126-142.; Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, 1998.

[10] Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı, 1998.

[11] Əzimli A. Azərbaycan-NATO münasibətləri (1992-2000). Bakı, 2001, 226 s.

[12] Məmmədli E. Azərbaycan-Böyük Britaniya münasibətləri: 1991-2003-cü illər. Bakı, Adiloğlu, 2003. 173s.

münaqişəsi dünya siyasətinə ciddi təsir göstərən amillərdən biri kimi nəzərdən keçirilmişdir.[13]

Bundan başqa, Azərbaycan siyasi elmində R.İbadov, V.İbayev və s. kimi tədqiqatçılar beynəlxalq münasibətlər, Azərbaycanın xarici siyasi əlaqələri, Qarabağ problemi və dünya ictimaiyyəti, xarici siyasətdə neft amili mövzularında çoxspektrli elmi-tədqiqat işləri aparmışlar.[14] Əsərlərin adından da göründüyü kimi, tədqiqatçılar beynəlxalq münasibənlərin müxtəlif istiqamətləri üzrə konkret tədqiqat aparmışlar. Lakin, elmi ədəbiyyatın təhlilindən də göründüyü kimi, beynəlxalq siyasi proseslərin, onların aktorlarının siyasi davranışının dinamikada nəzərdən keçirilməsi, formalaşan qlobal qarşılıqlı əlaqələrin siyasi aspektlərinin sistemli tədqiqində boşluqlar vardır. Odur ki, fikrimizcə, bütün bu istiqamətlərin ümumi səciyyəvi xüsusiyyətlərinin kompleks şəkildə tədqiq edilməsi hazırda siyasi elmin qarşısında duran başlıca vəzifələrdən biridir. Bu baxımdan təqdim olunan dissertasiya işi bu istiqamətdə edilən ilk cəhdlərdən biri kimi qiymətləndirilə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir beynəlxalq siyasi proseslər, onların aktoru kimi Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti, predmetini isə bu proseslərin inkişafı qanunauyğunluqları, müasir beynəlxalq münasibətlər sistemində tamhüquqlu subyekt kimi Azərbaycan Respublikasının yeri və rolu, onun müasir xarici siyasətinin xüsusiyyətləri, əsas istiqamətləri və inkişaf tendensiyaları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi müasir beynəlxalq siyasi proseslərin və onların aktoru kimi Azərbaycan Respublikasının xarici siyasətinin səciyyəvi xüsusiyyətlərinin, prioritetləri və perspektivlərinin milli inkişaf stra-

---

[13] Ruintən K. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı, Adiloğlu, 2008, 260 s.

[14] İbadov R. Avropa İttifaqının əsasları. Bakı, 2004, 212s.; İbayev V. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi insan hüquqları kontekstində (tətbiq olunan hüquq və məsuliyyət məsələləri). Bakı, 2001.; Rəcəbli H. BMT-nin ixtisaslaşmış qurumları. Bakı, 2003, 256 s.; Rəcəbli H., İbayev V. Avropa Şurası. Bakı, 1999, 118s.

tegiyası kontekstində konseptual siyasi təhlili əsasında tədqiq edilməsindən ibarətdir.

Qarşıya qoyulan bu məqsədə nail olmaq üçün aşağıdakı tədqiqat vəzifələri müəyyən edilmiş və yerinə yetirilmişdir:

- Müasir beynəlxalq siyasi proseslər kimi mürəkkəb bir fenomenin təbiəti və inkişaf qanunauyğunluqlarının hərtərəfli təhlil edilməsi;
- Ümumilikdə dünya "siyasi prosesi" məfhumunun ehtiva etdiyi məzmunun mahiyyətinin müəyyənləşdirilməsi və yeni reallıqların təsiri altında cərəyan edən müasir beynəlxalq siyasi proseslərin məntiqinin izah edilməsi;
- Beynəlxalq siyasi münasibətlərin mahiyyəti və məzmununa dair nəzəri yanaşmaların müqayisəli politoloji təhlilinin aparılması;
- Kəskin dəyişən dünyada siyasi proseslər zamanı meydana çıxan müxtəlif problemlərinin müqayisəli təhlil edilməsi və bu şərtlər daxilində siyasi idarəetmənin milli və beynəlxalq səviyyələrinin qarşılıqlı əlaqəsinin səciyyəvi xüsusiyyətlərinin müəyyən edilməsi;
- Qlobal siyasi və iqtisadi dəyişikliklərlə müşaiyət olunan modernləşmə və adaptasiya proseslərinin inkişafının təsiri altında transformasiya olunan Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti mexanizmlərinin təsir qüvvəsinin qiymətləndirilməsi;
- Xarici siyasətlə daxili siyasətin qarşılıqlı əlaqələrinin və bir-birinə təsiretmə imkanlarının müəyyən edilməsi probleminin nəzərdən keçirilməsi;
- Azərbaycan Respublikasının Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi balanslaşdırılmış xarici siyasət strategiyasının unikallığının əsaslandırılması, beynəlxalq siyasi proseslərin aktoru kimi Azərbaycanın xarici siyasət strategiyasının əsas istiqamətlərinin təhlil edilməsi, Müstəqil Azərbaycan dövlətinin müasir beynəlxalq siyasi proseslərə təsir imkanlarının və perspektivlərinin müəyyənləşdirilməsi;
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində Azərbaycanın xarici siyasət fəaliyyəti çərçivəsində beynəlxalq səylərinin başlıca istiqamətlərinin nəzərdən keçirilməsi;
- Müasir beynəlxalq təhlükəsizlik, xüsusilə də beynəlxalq enerji təhlükəsizliyi sistemində Azərbaycan Respublikasının yerinin və rolunun araşdırılması və s.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın nəzəri bazasını ilk öncə Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxış və nitqlərində Azərbaycanın xarici siyasəti ilə əlaqədar irəli sürülmüş konseptual müddəalar, eləcə də tədqiqat problemi ilə bağlı fundamental elmi yanaşmalar və nəzəri konsepsiyalar təşkil edir. Bundan başqa, beynəlxalq münasibətlərə dair klassik nəzəriyyələr, çoxsaylı beynəlxalq müqavilələr, konvensiyalar, protokollar, beynəlxalq təşkilatların qəbul etdikləri sənədlər dissertasiyanın mənbəyi kimi müəyyənləşdirilmişdir.

Dissertasiyanın metodoloji əsasları kimi isə tədqiqat probleminə sistemli yanaşma çərçivəsində tarixi, siyasi-analitik təhlil, müqayisəli politoloji təhlil, analiz və sintez metodlarından istifadə edilmişdir. Bundan başqa nəzəri ümumiləşdirmə, kontent-analiz və bir sıra digər elmi dərk metodlarına da müraciət edilmişdir.

**Dissertasiyanın elmi yeniliyi və müdafiəyə çıxarılan müddəalar.** Ümumilikdə dünyadakı qlobal dəyişikliklər fonunda yeni çalarlar qəbul etmiş müasir beynəlxalq siyasi proseslərin təbiəti və məzmunu ilk dəfə olaraq Azərbaycan siyasi elmi çərçivəsində doktorluq dissertasiyası səviyyəsində tədqiq edilmişdir. Yeni beynəlxalq münasibətlər sisteminin prinsiplərinə uyğun şəkildə cərəyan edən müasir siyasi proseslərin aktoru kimi Azərbaycan Respublikasının bu proseslərdə yeri və rolu araşdırılmışdır. Tədqiqat zamanı əldə etdiyimiz yeni elmi nəticələri aşağıdakı konkret müddəalarla ifadə edə bilərik:

- Beynəlxalq siyasi münasibətlər sistemində dövlətlərin daimi dinc yanaşı mövcudluqlarını təmin edəcək və onların fəaliyyətlərini mütləq şəkildə tənzimləyə biləcək mükəmməl qanunlar sistemi və mexanizmləri mövcud deyildir;
- Müasir beynəlxalq münasibətlər sistemində subyektlərin sayının artmasının pozitiv tərəfləri ilə yanaşı neqativ tərəfləri də mövcuddurlar. Neqativ tərəflər bu tendensiyanın daha təhlükəli olmasına dəlalət edirlər. Belə ki, subyektlərin sayının durmadan artması onların fəaliyyətlərinin nəzarətdə saxlanılmasını çətinləşdirir. Bunun özü də bir sıra fəsadların törənməsini şərtləndirir. Yəni, belə halda beynəlxalq siyasi proseslərin inkişaf tendensiyalarının proqnozlaşdırılması hiss olunacaq dərəcədə çətinləşir;

- Beynəlxalq münasibətlərdəki demokratikləşmə prosesi, bu prosesi həyata keçirən, koordinasiya edən və onu maliyyələşdirən subyektlərə beynəlxalq siyasi prosesləri inhisara almaq, onları arzuladıqları istiqamətdə inkişaf etdirmək imkanı verir;
- Müasir beynəlxalq münasibətlər sisteminin ən səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, dövlət, üç yüz ildən artıq bir müddətdə malik olduğu statusu itirmişdir. Daha dəqiq ifadə etsək bu status digər çoxsaylı aktorlar arasında bölüşdürülmüşdür. Beləliklə, müasir beynəlxalq münasibətlər sistemində birinci dərəcəli aktor artıq mövcud deyildir. Hesab edirik ki, dünya siyasi arenasındakı ziddiyyətlərin dərinləşməsinin başlıca səbəbi də məhz budur;
- Dünyanın ən böyük güc mərkəzlərinin səylərinə baxmayaraq, Qafqazda regional təhlükəsizlik sisteminin yaradılmasından danışmaq mümkün deyildir. Bunun başlıca səbəbi kimi regionda dünyanın nəhəng dövlətlərinin barışmaz geosiyasi maraqlara malik olmasını qeyd etmək olar. Həmin dövlətlərin ayrı-ayrılıqda hər birinin maraqları region əhalisinin maraqlarından, sosial və iqtisadi rifahlarından üstün tutulur. Digər tərəfdən isə, Azərbaycan torpaqlarının erməni işğalı altında olması faktı regional təhlükəsizlik sisteminin yaradılmasını əngəlləyən ən başlıca amildir;
- Qafqazda sabitlik və təhlükəsizlik ideyasının reallaşdırılması istiqamətində ilk addım Ulu öndərimiz Heydər Əliyev tərəfindən atılmışdır. Belə ki, 1996-cı ildə Ümummilli lider Heydər Əliyevin Gürcüstan Respublikasına rəsmi səfər zamanı "Qafqaz bölgəsində sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan bəyannaməsi imzalanmışdır;
- Bütün tənqidi münasibətlərə və qloballaşmanın əleyhidarlarının müqavimətlərinə baxmayaraq, beynəlxalq siyasi proseslərin transformasiyası amili kimi çıxış edən qloballaşma sürətlə yayılaraq dünyanı əhatə edir. Özü ilə bərabər keyfiyyətcə yeni beynəlxalq münasibətlər sistemi formalaşdıran qloballaşma özünəməxsus mahiyyəti və inadkar məntiqi ilə S.Hantinqtonun sivilizasiyaların qarşıdurması nəzəriyyəsini də alt-üts edir. S.Hantinqton hesab edir ki, XXI əsr dini və milli identiklik əsiri olacaq. Yeni əsrin ideoloji və iqtisadi rəqabətini də məhz bu əsaslar təşkil edəcək. Ancaq qloballaşma ən müxtəlif dini ideologiyaya və mədəniyyətə sahib olan subyektləri, fərdləri vahid və şəxsi maraq ətrafında birləşdirir. Beləliklə, şəxsi ortaq maraq S.Hantinqtonun sivilizasiyaların

qarşıdurması nəzəriyyəsinin XXI əsrdə aparıcı ideologiya olacağını inkar edir;

- Azərbaycanının xarici siyasət strategiyasının istiqamətlərindən biri də açıq-aşkar erməni təəsübkeşliyi nümayiş etdirən dövlətlərlə daha sıx və intensiv əlaqələrin qurulmasından ibarət olmuşdur. Belə ki, Azərbaycan xalqının başlıca problemi olan Dağlıq Qarabağ düyünün ədalətli çözülməsi üçün Ermənistanı bir sıra ciddi dəstəklərdən məhrum etmək lazım idi. Bu baxımdan Fransa başda olmaqla, Qərbin bır sıra dövlətləri ilə sıx əlaqələrin qurulmasına daha böyük önəm verilir;

- Bu günə qədər qeyri-hökumət təşkilatları qrupuna aid edə biləcəyimiz başqa bir təşkilatlanmanın aktor kimi fəaliyyəti araşdırmaçıların diqqətindən kənarda qalıb. Bunların sırasına beynəlxalq lobbi və beynəlxalq diaspora təşkilatlarını daxil edə bilərik. Hər iki təşkilatlanma əslində təzyiq qruplar kimi fəaliyyət göstərməklə, bu və ya digər dövlətin müəyyən məsələlərlə bağlı qəbul etdiyi qərarlara təsir etmək imkanlarına malik olurlar;

- Bəzi dövlətlər beynəlxalq münasibətlərdə iştirak etsələr də, aktor kimi onların sistemə təsiri formal xarakter daşıyır. Belə olan halda, əgər bütün hallarda beynəlxalq münasibətlərdə aktor aldığı qərarlarla, digər aktorların qərarlarına təsir edəcək subyekt kimi dəyərləndirilirsə, o zaman qərarlarını formal kimi xarakterizə etdiyimiz dövlətləri aktor olaraq qəbul etmək bir o qədər də doğru deyil. Elə isə real aktor kimi biz yalnız dünya siyasətini müəyyənləşdirən dövlətləri qəbul etməliyik. Belə dövlətlərin isə sayı çox deyil. Hesab edirik ki, bu dövlətlər Böyük Britaniya, Fransa, Almaniya, Rusiya, ABŞ və Çindir. Əgər bu dövlətlərin gücünü arxalarında dayanan milli-etnik iradə ilə müəyyənləşdirməyə çalışsaq, o zaman təsnifatlandırma belə olacaq. Anqlo-sakson-yəhudi ittifaqı (Böyük Britaniya Krallığı, ABŞ, İsrail), Roma-German ittifaqı (Fransa, Almaniya, İtaliya), Rusiya Federasiyası və Çin Xalq Respublikası. Deməli, müstəqil aktor, yaxud qeyri formal dövlət qismində hazırda beynəlxalq münasibətlərin aktorları kimi yalnız bu dövlətlər çıxış edir;

- Azərbaycanın ən sıx əməkdaşlıq etdiyi nüfuzlu beynəlxalq təşkilatlar arasında BMT xüsusi yer tutur. Lakin BMT və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə tənzimlənməsi ilə birbaşa məşğul olan ATƏT Azərbaycan

Respublikasının ədalət və beynəlxalq hüquq normaları prinsiplərinə əməl olunmasının təmin edilməsi ilə bağlı gözləntilərinə cavab vermir. Ümumiyyətlə isə, BMT onun prinsiplərinin, məqsədlərinin və imkanlarının tələb etdiyi səviyyədə beynəlxalq sülhün və təhlükəsizliyin keşiyində durmur. Məsələn, BMT nizamnaməsində əksini tapan başlıca vəzifələrindən biri beynəlxalq mübahisələrin dinc yolla həll edilməsini təmin etməkdən ibarətdir. Lakin bu istiqamətdə ciddi fəaliyyətsizliyin şahidi oluruq. Bütün bunlar isə BMT-nin ikili standartlara yol verməyən islahatının zəruriliyini bir daha təsdiq edir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, burada aparılan təhlillər və əldə olunmuş elmi nəticələr hər şeydən öncə bu sahədə yeni tədqiqatlar üçün dəyərli nəzəri mənbə rolunu oynaya bilər. Bundan başqa, dissertasiya işi ilə tanışlıq ümumilikdə beynəlxalq siyasi proseslər, müasir beynəlxalq münasibətlər sistemi və Azərbaycan Respublikasının bu sistemdə yeri və rolu haqqında dolğun və konseptual təsəvvürlərin formalaşmasını şərtləndirə bilər.

Tədqiqatın praktik əhəmiyyətinə gəldikdə isə qeyd etmək lazımdır ki, Azərbaycanın xarici siyasətinin daha da təkmilləşdirilməsi baxımından bu istiqamətdə elmi tədqiqatların aparılması önəmlidir. Dissertasiyada təqdim olunan alternativ fikirlər və elmi yenilik kəsb edən müddəalar xarici siyasəti formalaşdıran siyasi mərkəzlər və dövlət orqanları tərəfindən əlavə məlumat bazası kimi istifadə edilə bilər. Bundan başqa ali məktəblərdə siyasi elmin müvafiq kurslarının tədrisi zamanı, həm də dövlət və inzibati idarəetmə sahəsində mütəxəssislər hazırlayan digər kurslarda, o cümlədən, geosiyasət, beynəlxalq münasibətlər nəzəriyyəsi və tarixi, regionşünaslıq kimi fənlərin tədrisi zamanı, eləcə də müvafiq dövlət orqanlarının fəaliyyətində dissertasiyanın materiallarından istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Politologiya və sosiologiya" kafedrasında müzakirə olunaraq müdafiəyə tövsiyə edilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin Azərbaycanda və xaricdə problemlə bağlı müxtəlif mövzularda keçirilən elmi seminarlarda, dəyirmi masa və konfranslardakı çıxışlarında və çoxsaylı elmi nəşrlərində əks edilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, dörd fəsil, on iki paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, mövzunun işlənmə dərəcəsi təhlil edilərək, mövcud ədəbiyyata münasibət bildirilir, tədqiqatın məqsəd və vəzifələri haqqında geniş məlumat verilir, tədqiqatın obyekti və predmeti, elmi yenilikləri, nəzəri-metodoloji əsasları, nəzəri-praktik əhəmiyyəti göstərilir.

Dissertasiya işinin birinci fəsli **"Müasir beynəlxalq siyasi proseslərin xüsusiyyətləri və inkişaf tendensiyaları" adlanır.** Bu fəsil üç paraqrafdan ibarətdir. Birinci fəslin **"Beynəlxalq siyasi proseslərin mahiyyəti və əsas məzmunu: nəzəri-metodoloji yanaşmalar"** adlanan birinci paraqrafında hər şeydən öncə beynəlxalq siyasi proseslərin mahiyyətinə aydınlıq gətirilir. Qeyd edilir ki, beynəlxalq siyasi proses dedikdə, beynəlxalq münasibətlərin institutsional və çoxsaylı qeyri-institutsional subyeklərinin kompleks fəaliyyətləri başa düşülür.

Bundan başqa, beynəlxalq siyasi proses ən sadə şəkildə konkret zamana və məkana uyğun olaraq beynəlxalq münasibətlər sistemində inkişaf edən müxtəlif siyasi proseslərin cəmidir. Beynəlxalq münasibətlər sisteminin təbiətinə uyğun olaraq, beynəlxalq siyasi proseslərin subyektləri rolunda xalqlar, etnoslar, müxtəlif sivilizasiyalar, dövlətlər, beynəlxalq təşkilatlar, qeyri-hökumət birlikləri, ictimai təşkilatlar, transmilli korporasiyalar, dini təşkilatlar, siyasi və ictimai liderlər çıxış edirlər. Birinci fəslin birinci paraqrafında beynəlxalq siyasi proseslərin tarixi inkişaf mərhələləri təhlil edilərək nəzərə çatdırılır ki, beynəlxalq siyasi proseslərin tarixi inkişafı bir sıra mərhələləri keçmişdir.

Bu paraqrafda həmçinin qeyd edilir ki, beynəlxalq siyasi proseslərin mahiyyətindən danışarkən nəzərə almaq lazımdır ki, beynəlxalq münasibətlər təcrübəsində müəyyən qanunauyğunluqlar mövcuddurlar və onlar da müxtəlf vektorlara malikdirlər. Milli birliklər beynəlxalq arenada bərabərhüquqlu subyektlər kimi təqdim edildikləri halda, beynəlxalq münasibətlərin iştirakçılarının suverenliklərinin və dövlətçiliklərinin ən yüksək həddə reallaşdırılması meylləri müşahidə olunur. Bununla yanaşı, getdikcə beynəlxalq münasibətlərin daha çox sayda iştirakçılarının inteqrasiyası tendensiyası güclənməkdədir. Dövlətlərarası geniş siyasi, sosial, iqtisadi və humanitar əməkdaşlıqların institutsional

forması daha da aktuallıq kəsb etməkdədir. Beynəlxalq siyasi proseslər mövcud beynəlxalq münasibətlərin xarakterinə uyğun olaraq cərəyan və inkişaf edir.

Bu paraqrafda beynəlxalq siyasi proseslərə dair müxtəlif nəzəriyyələr ayrı-ayrılıqda təhlil edilərək, hər birinə münasibət bildirilir. Göstərilir ki, beynəlxalq siyasi proseslərin təbiətinə və səciyyəvi xüsusiyyətlərinə dair əsas nəzəri disskusiyalar realistlərlə idealistlərin arasında getmişdir.

Dissertasiya işinin birinci fəslinin ikinci paraqrafı **"Qloballaşma və inteqrasiya prosesləri dünya siyasəti sisteminin dəyişməsi konteksində"** adlanır. Bu paraqrafda qloballaşmanın mahiyyəti izah edilir. Qeyd olunur ki, bəşəriyyət tarix boyu həmişə inteqrasiyaya, vahid siyasi, iqtisadi, yaxud sosial mədəni məkanın bir hissəsi olmağa can atmışdır. Tarix belə nümunələr yaradaraq, bu və ya digər imperiyaya öz hərbi-siyasi və iqtisadi nüfuz dairəsini iki, bəzən də üç qitəyə genişləndirmək imkanı vermişdir. Üç dünya dininin meydana gəlməsi dünya məkanının qlobal inteqrasiyasının yeni nümunəsini yaratmışdır.

Qeyd etmək lazımdır ki, qloballaşmanın ilk başlanğıcı ilə bağlı tədqiqatçılar arasında ciddi konfrontasiyalar mövcuddur. Bəzi tədqiqatçılar hesab edir ki, qloballaşma prosesinin mənbəyini ancaq müasir dövrdə axtarmaq böyük yalnışlıqdır. Qloballaşma tarixin lap keçmişlərindən mövcud olmuşdur və bu proses davamlı olacaqdır. Sadəcə olaraq, qloballaşma haqqında ilkin nəzəri təsəvvürlər keçən əsrdə formalaşmağa başlamışıdır. Məhz bundan sonra qloballaşma prosesinin nəzəri əsaslarının işlənilməsinə cəhdlər edilmişdir.

Qloballaşmaya dair müxtəlif yanaşmalar təhlil edilərək nəzərə çatdırılır ki, müasir qloballaşma fenomeninə münasibətdə müxtəlif elmlərin təmsilçilərinin baxışları heç də həmişə eyni deyildirlər. Məsələn, bəzi tədqiqatçılar qloballaşmanı «kapitalizmin» bir pilləsi və ya son müasirlik kimi təsvir edirlər. Bəzən qloballaşmanı «yeni düşüncə tərzi» kimi qiymətləndirirlər. Artıq qeyd etdiyimiz kimi, müasir qloballaşma bəşər cəmiyyətinin ən müxtəlif sahələrini əhatə edir. Məhz bu baxımdan qloballaşma problemi təkcə konkret bu sahədə tədqiqatlar aparan alimlərin deyil, siyasətçilərin, yazıçıların, hərbçilərin və digər, tam fərqli elm sahəsinə mənsub olan insanların da diqqət mərkəzindədir. Bu səbəbdən problemlə bağlı olduqca müxtəlif fikirlər formalaşmışdır.

Tədqiqatlar nəticəsində belə qənaətə gəlinir ki, qloballaşma prosesinin əsas ideyası ondan ibarətdir ki, o, ictimai həyatın bütün sahələrini iqtisadiyyatı, siyasəti, sosial sferanı, mədəniyyəti əhatə edən qlobal prosesdir. Qloballaşma dünyaya bütöv baxan yanaşma, qlobal təfəkkür tərzidir. Dünyada yaranan problemləri ayrı-ayrı dövlətlər həll edə bilmir. Belə çətin problemlər (ərzaq, ekoloji təhlükəsizlik və s.) qloballaşma prosesində həll olunur. Qloballaşmanın köməyi ilə bəşəriyyətin rastlaşdığı çətinliklər aradan qaldırılır. Ümumi əməkdaşlıq və təhlükəsizlik sistemi yaranır.

Tədqiqatçıların böyük əksəriyyəti öz müşahidələrinə istinadən hesab edirlər ki, qloballaşma prosesində insanların həyat tərzindəki müxtəliflilik aradan qalxır, yaxınlaşma, qovuşma baş verir. Digər tərəfdən ayrı-ayrı dövlətlərin təhlükəsizliyi vahid təhlükəsizlik sistemi ilə əvəz olunur. Beynəlxalq və regional təhlükəsizlik sistemləri daha etibarlı və daha çox davamlıdır. Uzunmüddətli proses kimi qloballaşma elə bir yeni dünya sisteminə keçidi nəzərdə tutur ki, bu qlobal sistem daxilində qarşılıqlı münasibətlər şəbəkəsi ənənəvi sərhədlərin əhəmiyyətini azaltmış olur.

Əlbəttə ki, buna uyğun olaraq yeni qlobal sistem dünya birliyinin təhlükəsizliyi də daxil olmaqla geniş sahələr spektrində üzərinə böyük kollektiv öhdəliklər götürür. Bir sıra tədqiqatçılar siyasi qloballaşmanı iqtisadi qloballaşmadan fərqləndirirlər. Bu paraqrafda müasir dünya siyasətinin dəyişməsi kontekstində qloballaşmanı və inteqrasiya prosesini təhlil edərkən bir sıra məqamlar xüsusi olaraq qeyd edilir. Belə ki, beynəlxalq proseslərin hazırkı inkişafı səviyyəsində qloballaşma və inteqrasiya proseslərinin tənzimlənməsi məsələsi qabarıq şəkildə özünü büruzə verməkdədir. Bu proseslərin tənzimlənməsi üçün isə vahid hüquqi norma və standartların yaradılması tələb olunur. Müşahidələr göstərir ki, nəzəri baxımdan qloballaşmanın əsasında inteqral hüquqi anlaşma durur və bu hal məntiqidir. Burada hüquqa iki prizmadan yanaşmaq olar. Birincisi, qloballaşmanın başlıca, universal və mahiyyətcə dəyişməz başlanğıcını hüquq təşkil edir. İkincisi isə qloballaşma prosesinin dinamikliyinin daimiliyi qanunauyğunluğu mövcuddur.

Birinci fəslin **“Dövlətlər və beynəlxalq qeyri-hökumət təşkilatları dünya siyasi proseslərinin transmilli aktorları kimi”** adlanan üçüncü paraqrafında beynəlxalq münasibətlərin aktorları məsələsi təhlil edilir. Burada əsaslandırılır ki, istənilən sosial-siyasət

münasibətlərin iştirakçıları vardır. Beynəlxalq siyasi proseslərin aktorları həm beynəlxalq münasibətlər sistemində fəaliyyət göstərən iştirakçıları, həm də onların cərəyan edən proseslərə təsirini ifadə edir. Ümumiyyətlə beynəlxalq münasibətlər sahəsini əhatə edən elmlərdə beynəlxalq arenadakı iştirakçıların qarşılıqlı əlaqələrindən bəhs olunanda «aktor» terminindən istifadə edilir. Beynəlxalq münasibətlər nəzəriyyəsində «beynəlxalq aktor» termini çox geniş yayılmışdır. Beynəlxalq aktor dedikdə beynəlxalq siyasi proseslərdə fəail iştirak edən istənilən iştirakçı başa düşülür. Beynəlxalq siyasi proseslərin başlıca aktorları rolunda dövlətlər və beynəlxalq təşkilatlar çıxış edirlər. Beynəlxalq münasibətlər sistemindəki digər iştirakçıların aktor kimi qəbul edilməsi məsələsi isə hələ də kəskin mübahisələr obyekti olaraq qalmaqda davam edir.

Digər bir mübahisəli məsələ də ondan ibarətdir ki, məhz hansı növ aktorlara üstünlük vermək lazımdır. Yəni, başlıca rolu dövlətlər, yoxsa beynəlxalq təşkilatlar oynayır?! Siyasi realizm cərəyanının tərəfdarları hesab edirlər beynəlxalq siyasi prseslərin başlıca, hətta yeganə aktoru rolunda yalnız dövlət çıxış edə bilər. Müasir dövrdə beynəlxalq qeyri-hökumət təşkilatlarının beynəlxalq münasibətlər sistemində daha da fəallaşması müşahidə edilməkdədir. Hətta bir sıra elmi cərəyanlar beynəlxalq münasibətlər sistemində qeyri-hökumət təşkilatlarının getdikcə dövləti sıxışdırması fikirlərini də irəli sürürlər. Tarnsnatsionalizm cərəyanının tərəfdarlarının fikrincə müxtəlif təşkilatlar arasında qarşılıqlı əlaqələrin sürətlə güclənməsi beynəlxalq siyasi proseslərdə dövlətin mövqelərini və rolunu zəiflətməkdədir. Qeyri-hökumət təşkilatlarının rolu isə əksinə artmaqdadır. Həqiqətən, son dövrlərin müşahidələri göstərir ki, dövlət artıq beynəlxalq münasibətlər sistemində yeganə aktor statusunu itirməkdədir.

Beynəlxalq siyasi proseslərin digər iştirakçılarından fərqli olaraq, beynəlxalq qeyri-hökumət təşkilatları qeyri-ərazi birliklərdirlər. Bundan başqa beynəlxalq qeyri-hökumət təşkilatlarının üzvləri suveren dövlətlərdən ibarət olmur. Beynəlxalq qeyri-hökumət təşkilatları bir sıra mühüm kriteriyaya cavab verirlər. Hər şeydən öncə beynəlxalq qeyri-hökumət təşkilatlarının tərkibi və məqsədləri beynəlxalq xarkterli olur. Bundan başqa beynəlxalq qeyri-hökumət təşkilatlarının fəaliyyətində könüllülük prinsipləri ciddi şəkildə gözlənilir. Qeyd etmək lazımdır ki, beynəlxalq qeyri-hökumət

təşkilatları beynəlxalq siyasi proseslərin yeni aktorları kimi təqdim edilir. Müasir siyasi elmdə beynəlxalq qeyri-hökumət təşkilatlarına bir neçə terminlər tətbiq edilir. Belə ki, onları «suverenlik xaricində aktorlar», «transmilli qüvvələr», «tarnsmilli təşkilatlar» və s. kimi adlar altında təqdim edirlər. Beynəlxalq qeyri-hökumət təşkilatları öz miqyaslarına, strukturlarına, fəaliyyət istiqamətlərinə və qarşıya qoyduqları məqsədlərə görə fərqlənirlər. Lakin, onları dövlətdən və hökumətlərarası təşkilatlardan ciddi şəkildə fərqləndirən ümumi cəhətlər mövcuddur. Dövlətdən fərqli olaraq beynəlxalq qeyri-hökumət təşkilatları hakimiyyət resurslarına malik olmurlar.

Dissertasiyanın **ikinci fəsili "Beynəlxalq münasibətlər sistemi və onun müasir dövrdə transformasiyası amilləri: siyasi təhlil" adlanır.** Bu fəsil üç paraqrafdan ibarətdir. İkinci fəsilin **"Müasir beynəlxalq münasibətlər sisteminin xüsusiyyətləri"** adlanan birinci paraqrafında Müasir beynəlxalq münasibətlər sisteminin xüsusiyyətləri: indiki şəraitdə beynəlxalq münasibətlərin təbiəti, mahiyyəti, qanunauyğunluqları müəyyənləşdirilir. Müasir beynəlxalq münasibətlərin xüsusiyyətləri təhlil olunaraq nəzərə çatdırılır ki, ikiqütblü sistemin çökməsindən sonra dünyada çoxqütblü sistem meydana gəlmişdir. Bu isə dünyada tam yeni parametrlərə malik bir siyasi sistemin formalaşmasını şərtləndirmişdir. Yeni beynəlxalq münasibətlər sistemi çoxqütblü olmaqla yanaşı, həm də çoxvektorlu bir sistemdir.

Belə ki, çoxqütblülük özünü təkcə siyasi səhnədə göstərmir. Müasir dövrdə dövlətlərarası münasibətlər, istər əməkdaşlıq, istərsə də mübarizə formasında iqtisadi, hərbi-strateji, qeosiyasi, diplomatiya, mədəni-ideoloji, kommunikasiya və s. kimi ən müxtəlif sahələri əhatə edir. SSRİ süquta uğradı və onun yerində müstəqil dövlətlər meydana gələrək, dünya siyasi xəritəsində özlərinə yer etdilər. Müşahidə edilən digər tendensiya ondan ibarət oldu ki, etnik zəmində münaqişə ocaqları yarandı, qlobal qarşılıqlı asılılıq fonunda separatiz meylləri ciddi şəkildə gücləndi, beynəlxalq terrorizm genişlənərək daha da təhlükəli xarakter aldı və s. Bütün bunlar da öz növbəsində əvvəlki beynəlxalq təhlükəsizlik sistemini süquta uğratdı.

Müasir beynəlxalq siyasi proseslərin başlıca xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, hazırkı sisteminin özü keçid dövrünü yaşayır. Müasir beynəlxalq münasibətlər sistemində çoxəsrlik ənənələr və qanunauyğunluqlarla yeni ənənələr və qanunauyğunluq

qarşılıqlı fəaliyyətdədirlər. Yuxarıda qeyd etdiyimiz kimi, dövlətlərlə yanaşı yeni subyektlər də müasir dünya siyasətinin fəal iştirakçılarına çevrilmişlər. Transmilli şirkətlər və beynəlxalq təşkilatlar, qlobal kommunikasiya sistemi, dünyanın qarşılıqlı iqtisadi asılılığı müasir beynəlxalq münasibətlər haqqında ilkin təsəvvürlər yaradır. Qeyd etdiklərimizdən başqa, digər reallıqlar da göz önündədir.

**İkinci fəslin "Müasir beynəlxalq münasibətlər sistemində qlobal problemlər və təhlükəsizliyə qarşı əsas təhdidlər."** Adlanan ikinci paraqrafında müasir dövrün qlobal problemlərinin mənşəyinin, mahiyyətinin və onların səmərəli aradan qaldırılması imkanlarının təhlil aparılır. Bu zaman öncə problemlərin meydana gəlməsini şərtləndirən tarixi proseslər bütün obyektiv ziddiyyətləri ilə nəzərdən keçirilir və qlobal problemlərin özünəməxsusluqları müəyyənləşdirilir.

Qeyd olunur ki, qlobal problemlər ümumbəşəri xarakter daşıyır. Belə ki, onlar bütün dövlətlərin, xalqların maraqlarına toxunur. Hətta, bütövlükdə bəşəriyyətin gələcəyinə mənfi təsir göstərmək ehtimalları böyük olur. Bəzən özlərini həddən artıq kəskin şəkildə göstərməsələr belə, qlobal problemlər bəşər cəmiyyətini adımbaaddım izləyir. Ancaq bəzən tarixin axışında belə problemlərin inkişafı ya tamamilə hiss olunmur, ya da çox zəif hiss olunur. Bu da sonradan bir sıra çox ciddi fəsadlara gətirib çıxarır. Aydındır ki, qlobal problemlərin bəzi məqamlarda özlərini büruzə verməməsi və zəif inkişaf etməsi müvəqqəti xarakter daşıyır. Onların vaxtında müəyyənləşdirilərək qarşısı alınmadıqda isə bəşəriyyətin inkişafı qarşısında ciddi maneələr yaradırlar. Müasir dövrün qlobal problemləri sistemli və kompleks xarakterli olurlar. Bu ondan xəbər verir ki, onların aradan qaldırılması üçün bir dövlətin və ya dövlətlər qrupunun səyləri kifayət etmir. Qlobal problemlərin aradan qaldırılmasında bütün dövlətlərin və xalqların birgə səyləri tələb olunur.

Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizliyə olan ciddi təhdidlərdən biri də nüvə silahıdır. Beynəlxalq münasibətlər sisteminin bir sıra iştirakçılarının nüvə silahına malik olması bəşəriyyəti ciddi təhlükə ilə üz-üzə qoymaqdadır. Nüvə silahının dəhşətli gücünü ilk dəfə Xirosima və Naqasaki şəhərlərinin sakinləri hiss etmişlər. Belə ki, 1945-ci ilin avqust ayında ABŞ tərəfindən 20kt

gücündə iki atom bombası Yaponiyanın qeyd edilən adalarına atılmışdır.

Beynəlxalq münasibətlər sistemində təhlükəsizliyi pozan növbəti neqativ amil terrorizmdir. Terrorizm bu gün təkcə hakimiyyətə qarşı mübarizə aparanların əlində deyil, həm də hakimiyyətin özünün əlində qorxunc bir vasitəyə çevirilmişdir. Son dövrlərdə dünyada cərəyan edən ciddi neqativ proseslər əsasən terrorizmin nəzərəçarpacaq təsirləri altında baş verir. Bu baxımdan müasir beynəlxalq münasibətlər sistemində sabitliyin təmin edilməsinin başlıca şərtlədirndən biri də beynəlxalq terrorizmə qarşı ciddi səmərəli mübarizə aparmaqdan ibarətdir. Müasir dövrümüzdə terrorizmə qarşı mübarizə bir sıra amillərin təsiri altında olduqca mürəkkəb xarakter daşıyır. Terrorizmə qarşı mübarizəni çətinləşdirən başlıca problem, onun mahiyyətinə dair vahid yanaşmanın olmaması ilə bağlıdır.

Bu paraqrafda əsaslandırılır ki, müasir beynəlxalq təhlükəsizlik sistemi üçün erməni terrorizmi ciddi bəlaya çevrilmişdir. Ermənistanın Azərbaycan Respublikasına qarşı dövlət səviyyəsində dəstəklədiyi və təşkil etdiyi terror aktları Azərbaycan ərazilərinin zəbt edilərək anneksiyasına hesablanmışdır. Bu faktlar nüfuzlu beynəlxalq qurumların, o cümlədən BMT-nin, ATƏT-in, ABŞ-ın Dövlət Departamenti və başqa beynəlxalq qurumların hesabat sənədlərində də öz əksini tapmışdır. Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, son illərdə Azərbaycanda həbs edilmiş təxribatçı və terrorçuların böyük əksəriyyəti Ermənistanda və işğal altında olan Dağlıq Qarabağda hazırlıq keçmiş, silah-sursat və maliyyə dəstəyi almışlar.

İkinci fəsilin üçüncü paraqrafı “**Beynəlxalq münasibətlər sistemində hərbi güc amili**” adlanır. Üçüncü paraqrafda qeyd edilir ki, müasir beynəlxalq münasibətlər sistemindəki siyasi, iqtisadi və mədəni inteqrasiyanın hansı səviyyədə inkişaf etməsindən asılı olmayaraq, dövlət nəyin bahasına olursa olsun beynəlxalq siyasi proseslərə ənənəvi təsir vasitəsini inhisarında saxlamağa və əvvəlki səmərəliliyi ilə tətbiq etməyə çalışır. Bu, əlbəttə də ki, hərbi gücdür. Həqiqətən də tarixə nəzər saldıqda görürük ki, minilliklər boyu dövlətin əlində əsas təsir və ya məcburetmə vasitəsi hərbi güc olmuşdur. Bunu şərtləndirən bir sıra mühüm amillər vardır. Əlbəttə, ən birinci amil ondan ibarətdir ki, hərbi güc ən səmərəli və sınanılmış

təsiretmə və məqsədəçatma vasitəsidir. Beynəlxalq münasibətlərin xarakteri də dünya siyasi arenasının tənzimlənməsinin başlıca vasitəsi kimi gücə üstünlük verilməsini şərtləndirmişdir.

Dövlət beynəlxalq münasibətlər sistemində iradəsinin digər subyektlər tərəfindən qəbul edilməsi üçün müxtəlif güc formaları tətbiq edə bilər. Məsələn, elmi-texniki, informasiya, ideoloji, siyasi və s. güc formalarını tətbiq edir. Dövlətin elmi-texniki gücü dedikdə, onun öz milli maraqlarını həyata keçirmək üçün elmi-texniki inkişafın naliyyətlərindən istifadə etməsi başa düşülür. Yüksək elmi-texniki naliyyətlərə malik olan dövlətin beynəlxalq arenada mövqeləri əhəmiyyətli dərəcədə möhkəm olur. Elmi-texniki güc öz növbəsində dövlətin iqtisadi potensialının yüksəlməsinə xidmət edir. Dövlətin informasiya gücü də əhəmiyyətlidir. İnformasiya gücü dedikdə daha əhəmiyyətli və hamıdan qabaq informasiyalara malik olmaq imkanları başa düşülür. Burada maraqlı bir tezis yerinə düşür. «İnformasiyaya maliksən, deməli silahlısan».

Hərbi güc dövlətin qüdrətinin ən vacib elementi və hakim elitanın etibarlı dayağı kimi nəzərdən keçirilmişdir. Demək olar ki, bütün alimlərin və siyasi xadimlərin fikrincə, hərbi qüdrət dövlətin beynəlxalq arenada gücünün və nüfuzunun əsas göstəricisidir. Bu gün də vəziyyət dəyişməmişdir. Sadəcə olaraq hərbi gücün təbiətində bir sıra dəyişikliklər baş vermişdir. Belə ki, beynəlxalq münasibətlər sistemində onun, dünya ictimaiyyət tərəfindən tanınmış subyektlərindən başqa digər struktur elementlərinin də fəaliyyət dinamikliyin artması hərbi gücün sırf dövləti mənsubiyyət daşıması haqqındakı fikirləri nisbətən zəiflətmişdir. Hərbi güc müasir beynəlxalq münasibətlər sistemində təsirli bir elementdir. Nüvə silahının meydana gəlməsi hərbi gücün rolunun müəyyən qədər dəyişməsini şərtləndirmişdir.

Dissertasiyanın üçüncü fəsili "Azərbaycan Respublikası və müasir dünya siyasəti" adlanır. **Üç paraqrafdan ibarət olan bu fəslin birinci paraqrafı** "Azərbaycan Respublikasının beynəlxalq münasibətlərin tamhüquqlu subyektinə çevrilməsi prosesi" adlanır. Bu paraqrafda ilk öncə Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminə inteqrasiyası prosesi təhlil edilir. Nəzərə çatdırılır ki, 1991-ci ilin oktyabr ayının 18-də öz müstəqilliyini bəyan edən Azərbaycan Respublikası üçün beynəlxalq aləmə uğurlu inteqrasiya həyati vacib əhəmiyyət kəsb edirdi. Ölkənin olduqca

əlverişli geosiyasi bir məkanda, həm də dünyanın supergüclərinin barışmaz maraqlarının kəsişdiyi regionda yerləşməsi milli dövlətçilik prinsiplərinə, müstəqilliyin və suverenliyin qorunmasına xidmət edəcək dayanıqlı xarici siyasi strategiyanın hazırlanmasını və tətbiq edilməsini tələb edirdi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin uzaqgörən, düşünülmüş və yeni siyasi reallıqları ən kiçik elementlərinə kimi nəzərə alan xarici siyasət strategiyası gənc Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində layiqli yerini tutmasını şərtləndirmişdir. Müasir dövrün diplomatik əlaqələri və Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemindəki mühüm rolu bir daha sübut edir ki, Heydər Əliyevin millətinə, dövlətinə verdiyi töhfə təkrarsız və alternativsizdir.

Müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikasının diplomatiyasının qarşısında olduqca ciddi problemlər dayanırdı. Hər şeydən öncə, hələ SSRİ dönəmində açıq şəkildə Azərbaycana qarşı ərazi iddiaları irəli sürən ermənilərin sonrakı illərdə separatizm hərkatlarını genişləndirməsi olduqca böyük təhlükə yaradırdı. Belə ki, 1988-ci ilin əvvəllərində Ermənistan Respublikasında və Dağlıq Qarabağda yaşayan azərbaycanlıların zorla öz doğma yurd-yuvalarından çıxarılması prosesi başlanmışdı. Azərbaycanın tərkibində siyasi, iqtisadi, sosial və mədəni muxtariyyata malik olan Dağlıq Qarabağda yaşayan erməni icması öz müqəddəratını təyin etmə hüququnu bəhanə gətirərək Azərbaycan dövlətinə tabe olmaqdan imtina etdi. Artiq, 1992–ci ilin əvvəllərində erməni silahlı birləşmələri bir–birinin ardınca Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı sonuncu yaşayış məntəqələrini işğal etmişdilər. Ermənistan tərəfindən Azərbaycana qarşı edilmiş təcavüzün nəticələrinin aradan qaldırılaraq ölkənin ərazi bütövlüyünün bərpa edilməsi əlbəttə böyük hərbi-diplomatik səylər tələb edirdi.

Azərbaycan dövlətinin yeni xarici siyasət strategiyası hər şeydən öncə ölkənin ərazi bütövlüyünü bərpa etməklə, dövlətçiliyini möhkəmləndirməklə və hərtərəfli geniş əlaqələr qurmaqla dünyanın müstəqil və yüksək inkişaf etmiş ölkələri arasında özünə layiqli yer tutmasına hesablanmışdır. Bunun üçün təkcə dünyanın ayrı-ayrı nüfuzlu dövlətləri ilə strateji əlaqələrin qurulmasıyla kifayətlənməyərək, fəaliyyətləri beynəlxalq hüquq normaları və səmərəli qarşılıqlı əməkdaşlıq prinsipləri ilə tənzimlənən BMT, ATƏT, AŞ, Aİ, İKT, QDİƏT, EKO, MDB kimi beynəlxalq və regional təşkilatlara da üzv

olaraq beynəlxalq aləmlə daha sıx təmasların qurulması istiqamətində önəmli addımlar atılmışdır. Bu təşkilatlarla qarşılıqlı əlaqələrin qurulması Azərbaycanın beynəlxalq aləmə daha səmərəli inteqrasiyasını şərtləndirmişdir.

Üçüncü fəslin ikinci paraqrafı **"Azərbaycan Respublikasının xarici siyasətinin əsas prinsipləri və prioritetləri"** adlanır. Bu paraqrafda qeyd edilir ki, Azərbaycan Respublikasının xarici siyasətinin başlıca prinsipləri 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında və ümummilli lider Heydər Əliyevin çıxışlarında öz əksini tapmışdır. Ölkə Konstitusiyasının 10-cu maddəsində Azərbaycanın xarici siyasətinin başlıca prinsipi önə çəkilərək qeyd olunur ki, Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur. Ölkənin ali qanununa uyğun olaraq, Azərbaycan Respublikası konkret sahələr üzrə xarici siyasətini reallaşdırarkən konkret prinsiplərə əsaslanır. Bu Azərbaycanın Respublikasının xarici siyasi kursunun özünəməxsusluqlarını səciyyələndirən əlamətlərdəndir. Belə ki, siyasi, iqtisadi, mədəni və digər sahələrin xarakterinə uyğun olaraq konkret prinsiplər rəhbər tutulur.

Azərbaycan Respublikası öz inkişafını plüralist demokratiya prinsiplərinə söykənən, hüquqi dövlət quruculuğu yoluna istiqamətləndirmişdir. Buna uyğun olaraq ölkənin xarici siyasəti də beynəlxalq təcrübənin bütün mütərəqqi prinsiplərinə əsaslanır və müasir, sivil beynəlxalq normaları özündə əks etdirir. Beləliklə, Azərbaycan Respublikası müasir beynəlxalq təhlükəsizlik sisteminin dayağı olan beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasət kursunu reallaşdırmaqdadır. Deməli, müəyyənləşdirdiyi xarici siyasi kursa uyğun olaraq dünya dövlətlərinin ərazi bütövlüyünə, müstəqilliyinə suverenliyinə hörmətlə yanaşmaq və onların daxili işlərinə müdaxilə etməmək Azərbaycanın beynəlxalq aləmlə münasibətlərində və qarşılıqlı əlaqələrində əsas prinsiplərdir. Azərbaycan beynəlxalq münasibətlər sisteminin bütün aktorları ilə münasibətdə onların hərbi və iqtisadi potensialından, ərazisinin miqyasından asılı olmayaraq, dünya dövlətlərinin suveren bərabərliyi prinsipinə əsaslanan tam müstəqil xarici siyasət həyata keçirir.

Azərbaycan dövlətinin xarici siyasətinin digər başlıca prinsiplərdən biri kimi həmçinin, bu siyasətin həyata keçirilməsi

zamanı şəffaflığın təmin edilməsini, beynəlxalq münasibətlər sistemindəki real vəziyyəti təhlil edərək əvvəlcədən müəyyənləşdirilmiş addımların atılmasını göstərmək olar. İstər regionda, istərsə də kənarda yerləşən bütün dövlətlərlə dostluq və qarşılıqlı səmərəli ikitərəfli və çoxtərəfli əlaqələrin qurulması və inkişaf etdirilməsi, regionunda və ümumilikdə beynəlxalq arenada dinc yanaşı mövcud olmanı daim təbliğ etmə də həmçinin Azərbaycan dövlətinin xarici siyasətinin vacib prinsiplərindəndir. Azərbaycan dövlətinin xarici siyasətinin yuxarıda qeyd etdiyimiz prinsiplərini ulu öndər Heydər Əliyev daha dəqiq ifadə etmişdir. Belə ki, Heydər Əliyev ölkənin xarici siyasətini səciyyələndirərək qeyd etmişdir: "Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz hər hansı bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda respublikamızın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq".

Mühüm prinsiplərdən biri də ondan ibarətdir ki, Azərbaycan Respublikası regional qarşılıqlı əməkdaşlığı regionda sülhün və sabitliyin qorunub saxlanılması üçün mühüm amil hesab edir. Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə çıxış edərək torpaqlarımızın 20% -ə qədərini iğal altında saxlayan Ermənistan istisna olmaqla bütün region dövlətləri ilə qarşılıqlı faydalı dostluq münasibətləri qurmuşdur. Ümummilli lider Heydər Əliyev vaxtında böyük müdrikliklə müəyyənləşdirmişdir ki, region dövlətləri ilə qarşılıqlı əlaqələrin qurulması olduqca vacibdir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin söykəndiyi ana prinsiplərdən biri də balanslaşdırma siyasətidir. Azərbaycan Respublikasının geosiyasi mövqeyi və mövcud beynəlxalq vəziyyəti məhz balanslaşdırılmış xarici siyasətin həyata keçirilməsini tələb edir.

Üçüncü fəslin üçüncü paraqrafı **“Azərbaycan Respublikasının xarici siyasətinin formalaşmasında Heydər Əliyevin rolu”** adlanır. Qeyd edilir ki, 1993-cü il oktyabr ayının 10-da Azərbaycan Respublikasının prezidenti seçilməsi münasibəti ilə etdiyi çıxışında ümummilli lider müstəqil dövlət üçün xarici siyasətin olduqca önəmli olmasını diqəttə çatdıraraq bildirmişdir: «Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin

yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir»[15]. Ümummilli lider Heydər Əliyev özünün qeyd etdiyi istiqamətdə qısa bir zaman kəsiyində titanik fəaliyyət həyata keçirərək Azərbaycanın milli maraqlarına tam cavab verən xarici siyasət konsepsiyası yaratmışdır. Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində böyük təcrübəsi, uzaqgörənliyi ona qısa zaman kəsiyində Azərbaycanın milli maraqlarına tam cavab verən və onun dünya birliyinə uğurlu inteqrasiyasını təmin edəcək unikal xarici siyasət strategiyasını hazırlamağa imkan vermişdir. Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasət konsepsiyasının ən başlıca səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, bu konsepsiya balanslı xarici siyasətin həyata keçirilməsini nəzərdə tuturdu. Ümummilli lider Heydər Əliyevin xarici siyasət konsepsiyasının əsas unikallığı ondan ibarətdir ki, o, bir neçə onilliyin dəyişən şərtlərini nəzərə almaqla Azərbaycan Respublikasının stabil, davamlı inkişafı və müasir beynəlxalq münasibətlər sisteminin ciddi, tamhüquqlu aktoruna çevrilməsi üçün etibarlı zəmin yaratmışdır.

Ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi yeni neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanın müstəqil dövlət kimi digər dünya ölkələri ilə əməkdaşlığının genişlənməsinə, Avropa İttifaqına və digər mötəbər qurumlara inteqrasiyasına mühüm zəmin yaratmaqla onu beynəlxalq münasibətlərin ciddi bir subyektinə çevirmişdir. «Əsrin müqaviləsi» imzalanandan sonra hasil olunacaq neftin dünya bazarlarına çıxarılması məsələsi də ciddi problem kimi qarşıda dururdu. Bu məsələdə də Heydər Əliyev böyük prinsipiallıq nümayiş etdirmişdir. Belə ki, ixrac kəmərinin Ermənistan ərazisindən keçərək Türkiyənin Ceyhan limanına çatdırılması iqtisadi baxımdan daha səfli olmasına baxmayaraq, kəmərin, Azərbaycan torpaqlarını işğalda saxlayan Ermənistanın ərazisindən keçməsinə yol verməmişdir.

**Dissertasiyanın dördüncü fəsili "Beynəlxalq təhlükəsizlik sistemi və Azərbaycan Respublikası"** adlanır. Dördüncü fəslin **"Beynəlxalq təhlükəsizlik sistemində Azərbaycan Respublikası-**

---

[15] . Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 42 cilddə. Cild 1. Bakı, Azərnəşr. 1993. S.132.

**nın yeri və rolu"** adlanan birinci paraqrafında ilkin olaraq beynəlxalq təhlükəsizlik məsələsinə aydınlıq gətirilir.

Vurğulanır ki, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının başlıca prinsiplərindən birini də beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiya təşkil edir. Bu prinsipdən çıxış edərək, Azərbaycan dövləti beynəlxalq təhlükəsizliyin təmin edilməsi istiqamətində öhdəsinə düşən bütün vəzifələri ən yüksək səviyyədə həyata keçirir.

Müasir şəraitdə dövlətlərin təhlükəsizliyinin təmin edilməsi artıq dövlətin, cəmiyyətin və şəxsiyyətin bütün ictimai həyat fəaliyyətinin kompleks təhlükəsizliyinin təmin olunması ilə həyata keçirilir. Eləcədə qlobal miqyasda təhlükəsizliyin təmin edilməsi dedikdə, ən müxtəlif sahələrdə müafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bütün bu tendensiyaların Azərbaycan dövlətinin milli təhlükəsizliyinin təmin edilməsi istiqamətindəki həyata keçirdiyi fəaliyyətdə də öz əksini tapmasının şahidi oluruq. Belə ki, «Milli Təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında da milli təhlükəsizliyin başlıca struktur elementləri yuxarıda qeyd etdiklərimizə uyğun olaraq fərqləndirilir. Yəni, bu zaman təhlükəsizliyin üç əsas obyekti – insan, cəmiyyət və dövlət təsisatları qeyd edilir.

Beynəlxalq təhlükəsizliyin təmin edilməsinin başlıca üsullarından biri dövlətlər arasında münaqişəli vəziyyətin əvvəlcədən müəyyən edilməsi ilə bağlıdır. Bu istiqamətdə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki, ilkin olaraq, bəzi fəaliyyət növləri məhdudlaşdırılmışdır. Bunu dünya dövlətləri öz aralarında bağladıqları müvafiq müqavilələrdə təsbit etmişlər.

Azərbaycan Respublikası beynəlxalq sülhün və sabitliyin qorunub saxlanmasına yönəlmiş birgə tədbirlərdə iştirak etməklə, beynəlxalq və regional təhlükəsizliyə töhfə vermək üçün davamlı səylər göstərir.

Dördüncü fəsilin ikinci paraqrafı **"Beynəlxalq enerji təhlükəsizliyin təmin edilməsində Azərbaycan Respublikasının rolu"** adlanır. Burada qeyd edilir ki, enerji təhlükəsizliyi hazırda təkcə iqtisadi deyil, həm də siyasi məna kəsb edir. Hətta israr etmək olar ki, ikinci bir çox hallarda birincini üstələyir.

Enerji təhlükəsizliyi ayrı-ayrı dünya dövlətlərinin mövqelərinə, malik olduqları enerji potensiallarına və s. uyğun olaraq müxtəlif cür izah edilir. Bunun ciddi nəticəsi kimi, hazırda bütün dünya ölkələri üçün vahid qlobal enerji siyasətinin olmamasını göstərmək olar. Maraqların müxtəlifliklərini şərtləndirən amillər təkcə enerji resurslarının ixracı və qiyməti məsələləri ilə bağlı deyildir. Naharatçılığa səbəb olan əsas məqamlardan biri, bəlkədə də birincisi fasiləsiz ixracın təmin olunması, qoyulmuş sərmayələrin geri götürülməsi ilə bağlıdır. Bu mənada, enerji təhlükəsizliyi dedikdə, hər şeydən öncə istehlakçı ilə ixracatçı arasında qarşılıqlı cavabdehlik başa düşülür.

Hazırda dünyanın iri enerji resursları ixracatçıları arasında kəskin rəqabət getməkdədir. Bu rəqabət qlobal enerji təhlükəsizliyinin prinsiplərinə uyğunlaşmaqdadır. Belə hal özü-özlüyündə müsbət məqam olsa da, bir sıra neqativ elementləri də üzə çıxarır. Məsələn, əksər hallarda bu rəqabət siyasi xarakter alır. Nəticədə enerji təhlükəsizliyinə ciddi təhdidlər meydana çıxır. Rəqabət təkcə enerji istehsalçıları arasında deyil, həmçinin istehlakçıları arasında gedir. Belə olan halda isə enerji daşıyıcıları uğrunda mübarizə kəskinləşir və müxtəlif vasitələrə əl atılır. Bu mənada qarşıda duran ciddi vəzifələrdən biri də ondan ibarətdir ki, enerji sahəsinin depolitizasiyasına nail olunsun. Siyasi məqsədlər üçün enerji resurslarından bir vasitə kimi istifadə edilməsi bütün hallarda, nəticəsinin proqnozlaşdırılması çətin olan münaqişələrə səbəb olur. Enerji resurslarını ölkənin iqtisadi inkişafının yeganə elementinə və siyasi qarşıdurma pretmetinə çevirmək cəhdləri qlobal enerji təhlükəsizliyinə ciddi təhdid yaradır. Yuxarıda nəzərdən keçirdiklərimiz enerji təhlükəsizliyi probleminə sadə bir yanaşma irəli sürməyə imkan verir. Beləliklə, enerji təhlükəsizliyi dedikdə, lazımi miqdarda, etibarlı enerji mənbələrinə təhlükəsiz və zəmanətli çıxış əldə etmək başa düşülə bilər.

Zəngin enerji daşıyıcıları ehtiyyatlarına malik olan Azərbaycan Respublikası beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak etməklə yanaşı, enerji təhlükəsizliyi prinsiplərinə də dəqiqliklə əməl edir. Bu baxımdan dünya ictimaiyyəti digər sahələrdə olduğu kimi, enerji təhlükəsizliyinin təmin olunması sahəsində də Azərbaycanı etibarlı tərəfdaş kimi tanıyır.

Bu paraqrafda bildirilir ki, istər daxili, istərsə də beynəlxalq müstəvidə enerji təhlükəsizliyi problemi Azərbaycan Respublikasının Prezident Cənab İlham Əliyevin xarici siyasət strategiyasnın mühüm istiqamətini təşkil edir. Avropanın digər sahələrinə olduğu kimi, enerji infrastrukturuna da davamlı inteqrasiya edən Azərbaycan Respublikası artıq beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında böyük təcrübəyə malikdir. Prezident İlham Əliyev demişdir: "Ölkəmiz enerji təhlükəsizliyinə uzun illər öncədən diqqət yetirib".

Dördüncü fəsilin **"Postsovet məkanının regional təşkilatları və Azərbaycanın təhlükəsizlik maraqları"** adlanan üçüncü paraqrafında keçmiş SSRİ ərazisində müxtəlif inteqrasiya proseslərindən bəhs edilir. Nəzərə çatdırılır ki, SSRİ-nin süqutundan sonra MDB yaranması və Azərbaycanın bu təşkilat çərçivəsində qarşılıqlı əməkdaşlığı özünəməxsusluqları ilə seçilir. Hal-hazırda MDB, tərkibində iqtisadi, hərbi əməkdaşlıq, sərhədlərin qorunması, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə, nəqliyyat sahəsində, ekologiya, mədəniyyət, turizm, nəşr və s. sahələrdə qarşılıqlı əlaqələri koordinasiya edən 70-ə yaxın sahəvi strukturla fəaliyyət göstərir. Bununla yanaşı, MDB üzvləri müəyyən sahələrdə yüksək ticarət imtiyazlarına malikdir, ayrı-ayrı sahələrdə kooperasiyanın səviyyəsi iqtisadi cəhətdən olduqca yüksəkdir. Ümumi olaraq demək olar ki, MDB keçmiş SSRİ-nin ərazsində müstəqil dövlətlərin təşəkkül tapması prosesində mənfi tendensiyaların azalması funksiyasını yerinə yetirib, qətiyyətli və avtoritet mövqeyə malik olan dövlətlərarası birliyə çevrilmək şansına malik deyil. Eyni zamanda, iştirakçı dövlətlərin müxtəlif maraqlarını (daha çox üst-üstə düşməyən) daha tez-tez özündə əks etdirdiyi üçün effektivli birləşdirmə mexanizmindən danışmaq hələ tezdir. Bu təşkilatın hətta beynəlxalq siyasi inkişafda belə postsovet geosiyasi məkanındakı real rolu marginaldır. Müasir beynəlxalq münasibətlərə təsir baxımından MDB-nin imkanlarının üzə çıxarılması və reallaşdırılması gələcəyin işidir.

Dörd dövlətin (Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna) qeyri-formal qrupu olan GUAM-ın 1997-ci ildə yaradılması MDB çərçivəsində bəzi dövlətlərin ikitərəfli münasibətlərində fikir ayrılığının olması ilə şərtləndirilirdi. Azərbaycan və Ermənistan, Ukrayna və Rusiya, Rusiya və Moldova, Rusiya və Gürcüstan

arasında mürəkkəb qarşılıqlı münasibətlər, Rusiyanın MDB-nin bütün üzvləri üçün birləşdirici mərkəz olmaq roluna birdəfəlik son qoydu. Bununla yanaşı, Rusiyada mövcud olan siyasi qərarsızlıq və iqtisadi qeyri-sabitlik (1991-1998) MDB-dəki inteqrasiya tendensiyalarına xeyir gətirmirdi. GUAÖM-ın ilk yaradıldığı dövrlərdə bu hadisə Rusiyanın qəzəbinə səbəb oldu. Belə ki, o vaxt Rusiya Təhlükəsizlik Şurasının və Federal Təhlükəsizlik Xidmətinin sədri olan V.Putin bəyan etdi ki, «Bu qurum Rusiya ətrafında qurşaq kimi bir şeydir. Biz bu yeni reallığı qiymətləndirməli, daha sonra xarici, daxili və müdafiə siyasətimizi müəyyənləşdirməliyik». Yəqin ki, bu ehtiyatlılıq GUAM-ın iqtisadi maraqlarla yanaşı Avroantlantik məkana inteqrasiya məqsədi güdən regional kollektiv təhlükəsizlik sistemi yaratmaq hədəfi ilə izah edilə bilər.

İndiki mərhələdə isə postsovet məkanının regional təşkilatlarından olan GUAM-ın fəaliyyəti bu mənada güclənən və hegemoniyaya can atan Rusiya Federasiyasının fonunda demək olar ki, formal xarakter daşıyır. Bununla belə GUAM hələ də fəaliyyət qabiliyyətli regional təşkilatlardan hesab edilir.

**Nəticədə** tədqiqata yekun vurulur, aparılan ümumiləşdirmələr əsasında nəzəri və praktik əhəmiyyət kəsb edən tövsiyələr irəli sürülür.

## Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:

1. Роль и место международных организации в системе международных отношений // «Ученые записки. Серия: Общественно-политические науки». Бакинский Славянский Университет. № 2 Баку-2008. стр.102-108

2. Внешняя политика и система международных отношений: общий подход // «Актуальные проблемы гуманитарных и естественных наук» Москва. №4 апрель, 2009. стр.233-238

3. Основные типы современных международных отношений и их основные участники // «Журнал научных публикации аспирантов и докторантов». Курск. №5, май, 2009. стр. 42-45

4. Глобальные угрозы для современной системы международной безопасности // «Наука и жизнь Казахстана» Алматы. №2 апрел-май 2009. стр.137-142

5. Место военной силы в системе современных международных отношений // «Учетные записки. Серия общественно-политических наук». Бакинский Славянский Университет. Баку. №1 2009. стр.195-201

6. Müasir beynəlxalq siyasi proseslərə qlobal iqtisadiyyatın təsiri imkanları // "Pedoqoji Universitet Xəbərləri" Bakı-№ 6-2009. səh. 108-112

7. Влияние глобализации на формирование современной мировой политики // «Федерация. Научный журнал о проблемах политики, экономики, социологии и права». «Международные отношения» Москва. №11 (66). 2009 ноябр. стр. 4-7

8. Müasir beynəlxalq siyasi proseslərin fəal iştirakçıları kimi beynəlxalq Qeyri-Hökümət Təşkilatlarının mahiyyəti // "Dövlət idarəçiliyi. Nəzəriyyə və təcrübə" № 4 (28). Bakı. 2009. səh. 152-157

9. Azərbaycan Respublikasının xarici siyasətində neft amili // "Tarix və onun problərі" № 4. Bakı. 2009. səh. 140-143

10. Место и роль НАТО в современной системе международных отношений // «Право: теория и практика» № 1 (126). Москва. январь 2010. стр.8-12

11. Azərbaycanın beynəlxalq münasibətlərin fəal iştirakçısına çevrilməsi prosesi // "Azərbaycan arxeologiyası və etnoqrafiyası" № 1 Bakı 2009. səh.145-149

12. Место и роль Азербайджанской Республики в современных международных отношений // «Наука и жизнь Казахыстана» № 5-6. Алматы. ноябрь-декабрь 2009. стр 127-131

13. İnformasiya dövrünün dövlətləri və onların müasir siyasi proseslərdə rolu // "Dirçəliş XXI əsr" № 141-142. Bakı 2010. səh. 268-273

14. Характерные черты мирового политического процесса на современном этапе // «Вопросы гуманитарных наук» № 2 (46). Москва. 2010. стр.241-244

15. Проблемы закономерности в международных отношениях // «Экономика социология и право» «Журнал научных публикации» № 2. Москва. Февраль 2010. стр.52-56

16. Приоритеты внешнополитической стратегии Гейдара Алиева (урегулирование нагорнокарабахского конфликта) // «Журнал научных публикации аспирантов и докторантов» № 3. Курск. март 2010. стр.29-31

17. Azerbaycan Cumhuriyyetinin Uluslararası Teşkilatlarla İlişkilerinin Özellikleri // "II. Uluslararası Türk Dünyası kültür konqresi". Ege Universitesi, Türk Dünyası Araşdırmaları Enstitüsü. İzmir. 19-25 aprel 2010-cu il.

18. Azərbaycanın sosial-iqtisadi inkişafının başlıca istiqamətləri və əsas xüsusiyyətləri // «Heydər Əliyev və inkişafın Azərbaycan modeli» Bakı 2010. səh. 569-580

19. Beynəlxalq münasibətlərin nəzəriyyəsinin əsas metodları // Naxçivan Dövlət Universiteti "Elmi əsərlər" tarix və ictimai elmlər seriyası. № 1 (29). Naxçivan 2010. səh. 67-70

20. Beynəlxalq münasibətlərin və müasir dünya siyasətinin öyrənilməsinin metodoloji əsasları // Azərbaycan Dillər Universiteti. "Elmi xəbərlər" № 2 Bakı-2010. səh.272-277

21. Сравнительный анализ основных теории международных отношений // «Наука и молодежь» 2. Ташкент-2010. стр. 1136-116

22. The problem of modern develoment tendency and typology of international relations // "Azerbaijan and Azerbaijanis". № 1-2, Bakı-2010 səh. 290-293

23. Müasir dövrdə qloballaşma və inteqrasiya proseslərinin xüsusiyyətləri və Azərbaycan // "Pedaqoji Universiteti Xbərləri" № 3. Bakı-2010 səh.146-151

24. Beynəlxalq siyasi proseslərin təbiəti // "Pedaqoji Uiversitet Xəbərləri" № 4. Bakı-2010 səh.182-187

25. Beynəlxalq münasibətləri nəzəriyyəsinin əsas metodları // "Elmi Əsərlər" №1 (29). Naxçıvan, NDU, "Qeyrət"-2010. səh.67-70

26. Глобализация и современные международные отношения // "Межкультурные коммуникации" № 14. Тблиси 2011. стр.125-129

27. Tendency of development of modern international relations // Актуальные проблемы экономики и права. (Материалы III международной научно-практической конференции. 28-29 апреля 2011г. Г.Барановичи Республика Беларусь). В 2 чатьях. Часть 1. Барановичи 2011.стр.94-96

28. Nato-nun müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu // Tarix və onun problemləri. № 1 Bakı-2011. səh.121-124

29. Миграция из Азии в Европу: органическая целостность в евразии как фактор, обеспечивающий симметрическую интеграцию и межнациональные паритетные отношения "Modern problems of human society development" Materials Digest of the 3rd international Research and Practice Conference. Современные проблемы развития человеческого общества. Сборник материалов международной научно-практический конференции. Odessa InPress 2011. стр.22-24

30. Влияние глобализации на формирование современной мировой политики. "Problems of design and development of human communities self-organization forms" Materials Digest of the IV-th international Research and Practice Conference. Проблемы конструкции и развития форм самоорганизации человеческих сообществ. Odessa InPress 2011. стр. 30-32

31. Beynəlxalq münasibətlərdə yeni avrasiyaçılıq faktoru və Azərbaycan avrasiyada üzvi bütövlük, simmetrik inteqrasiya və millətlərarası paritet münasibətləri təmin edən faktor kimi. "GEO Strateqiya № 05 (05) "Azərbaycan" nəşriyyatı. iyul 2011 səh.61-64

32. Müasir beynəlxalq münasibətlər sisteminin əsas tipləri // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, №1. «Bakı universiteti» nəşriyyatı, 2011, səh.164-169

33. Konfedederasiya ideyasına elmi-nəzəri və analitik-empirik yanaşma // "Birlik" AXTƏM İctimai Birliyi. № 09 oktyabr 2011. Səh.7-9

34. Avropada yeni beynəlxalq münasibətlər sisteminin formalaşması, xüsusiyyətləri və beynəlxalq təşkilatlar // "Elmi əsərlər" №1 (16) Bakı-2011. səh.225-228

35. Внешняя политика и система международных отношений: обший подход // Азербайджан и азербайджанцы. № 1-2, Баку-2011. стр.185-191

36. Економика социология и право. «Информация как важное средство, влияющее на отношения между институтами внутри общества и международные отношения». Журнал научных публикаций. № 12 декабр 2011.

37. Актуальные проблемы экономики и права. «Глобализация как результат исторического развития международных отношений». Материалы IV международной научно-практической конференции. Барановичи. 2012. (Редакционная коллегия).

38. Military and political sciences in the context of social progress. Materials digest of the XXI International Scientific and Practical Conference and the I stage of Research Analytics Championship in military and political sciences. «Процесс глобализации в современной системе международных отношений и Азербайджан: реалии и перспективы». London 2012 (23-26 march), səh.18-21.

39. Space and time – coordinate system of human society development. Materials digest of the XXII International Scientific and Practical Conference and the I stage of Research Analytics Championship in philosophic and historical sciences. «Глобальные проблемы и угрозы, как значительные факторы, влияющие на современную систему международных отношений». London 2012 (23 march – 3 april), səh.21-24.

40. «Влияние новых кибертехнологий на национальные и международные процессы: научно-теоретический и аналитическо-эмпирический анализ» // Экономика социология и право. Москва 2012 (10-11 april 2012), səh.144-147.

Х.Б.Мамедов

# АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА КАК АКТОР СОВРЕМЕННЫХ МЕЖДУНАРОДНЫХ ПОЛИТИЧЕСКИХ ПРОЦЕССОВ

## *РЕЗЮМЕ*

Во введении обосновывается актуальность исследуемой темы, анализируется степень ее разработанности, определяются цели и задачи, теоретико-методологические основы исследования, его научная новизна, а также теоретическая и практическая значимость диссертации.

В первой главе – «Особенности и тенденции развития современных международных политических процессов» раскрывается сущность международных политических процессов, проводится анализ глобализации и изменений, внесенных ею в мировые политические процессы, изучается деятельность неправительственных организаций в политических процессах в качестве транснационального актора.

Во второй главе – «Система международных отношений и факторы их трансформации на современном этапе: политический анализ» исследуются особенности системы современных международных отношений, угрожающие им глобальные проблемы, вопросы общей безопасности и фактор военной силы в международных политических процессах.

В третьей главе – «Азербайджанская Республика и современная мировая политика» привлечены к научно-аналитическому исследованию превращение Азербайджанской Республики в полноправного субъекта международных политических процессов, основные принципы, приоритеты его внешней политики и роль выдающегося государственного деятеля Гейдара Алиева в формировании и реализации этой стратегии.

В четвертой главе – «Система международной безопасности и Азербайджанская Республика» проводится подробный анализ места и роли Азербайджанской Республики в современной системе международной безопасности, основные направления деятельности Азербайджанской Республики в обеспечении международной энергетической безопасности и вопросы ее

сотрудничества с региональными организациями в этом контексте.

В заключении обобщаются такие вопросы, как характерные особенности международных политических процессов на настоящем этапе, роль и перспективы участия Азербайджанской Республики в международных политических процессах, политика ее интеграции в международное сообщество, а также формулируются ряд рекомендаций теоретического и практического характера.

**H.B.Mammadov**

## THE AZERBAIJAN REPUBLIC AS THE ACTOR OF MODERN INTERNATIONAL POLITICAL PROCESSES

### *SUMMARY*

The subject of the study is substantiated in introduction. Also the degree of the development of the subject is analyzed, its purposes and tasks are determined, theoretical and methodological basis are formed, theoretical-practical value and the structure of the subject is highlighted in introduction.

The first chapter – "The features of and the trends in the development of contemporary international political processes" includes the explanation of the essence of international political processes, the analysis of globalization and the new development in political processes brought by it, and the study of non-governmental organizations as transnational actors in political processes.

The features of modern international relations system, the global problems that menace the system, and general security issues and military power incentives are researched in the second chapter – "International relations system and its contemporary transformation parameters: political analysis".

"The Republic of Azerbaijan and modern world politics" which is the third chapter of the dissertation is dedicated to the transformation of Azerbaijan to a full member of international relations, its foreign policy principles and priorities, and the role of Heydar Aliyev, a distinguished statesman in the definition of this strategy.

The role and position of the Republic of Azerbaijan in the present international security system, the main directions of Azerbaijan's policy on providing international energy security, and in this regard, the issues of cooperation with regional organizations are studied comprehensively in the forth chapter – "International security system and the Republic of Azerbaijan".

The characteristic features of contemporary international political processes, the influence of the Republic of Azerbaijan on international political processes, its perspectives and the policy of

integration into the international community and other issues are summarized, and some theoretical and empirical recommendations are expressed in the conclusion.

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ**
**ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

***На правах рукописи***

**ХИКМЕТ БАБА оглы МАМЕДОВ**

# АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА КАК АКТОР СОВРЕМЕННЫХ МЕЖДУНАРОДНЫХ ПОЛИТИЧЕСКИХ ПРОЦЕССОВ

**Специальность: 23.00.02 – «Политические институты, этнополитическая конфликтология, национальные и политические процессы»**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора политических наук

**Баку – 2013**